# AZƏRBAYCAN TEXNİKİ UNİVERSİTETİ

# AKADEMİK MÜKƏMMƏLLİK VƏ KEYFİYYƏTİN ARTIRILMASI QAYDALARI

**Bakı-2025**

# AKADEMİK MÜKƏMMƏLLİK VƏ KEYFİYYƏTİN ARTIRILMASI QAYDALARI

## 1. Hüquqi Əsas və Məqsəd

Akademik mükəmməllik universitetin təhsil, tədqiqat və sosial fəaliyyət sahələrində inkişafının əsasını təşkil edir. Bu Qaydalar Azərbaycan Texniki Universitetində (AzTU) akademik keyfiyyətin və performansın yüksəldilməsinə yönəlmiş fəaliyyətləri, mexanizmləri və nəzarət tədbirlərini müəyyən edir.

Əsas məqsəd – tədris proqramlarının keyfiyyətinin artırılması, qiymətləndirmə və monitorinq mexanizmlərinin təkmilləşdirilməsi, peşə kompetensiyalarına uyğun nəticələrin əldə olunması və beynəlxalq standartlara inteqrasiyanın təmin edilməsidir.

Qaydaların hazırlanması zamanı Azərbaycan Respublikasının "Təhsil haqqında" Qanunu, Nazirlər Kabinetinin müvafiq qərarları, Elm və Təhsil Nazirliyinin normativ sənədləri, beynəlxalq akkreditasiya tələbləri və digər hüquqi aktlara əsaslanılır.

## 2. Qanunvericiliyə Əsaslanan Tədbirlər

**Tədris proqramlarının və fənn proqramlarının uyğunlaşdırılması** – peşə kompetensiyalarına uyğunluq və mütəmadi monitorinq;

**Akkreditasiya sonrası nəzarət** – tövsiyələrin icrası və beynəlxalq standartlara uyğunluq;

**Təhsil keyfiyyətinin monitorinqi** – şəffaf və obyektiv meyarlarla mütəmadi qiymətləndirmə;

**Akademik fəaliyyətlərin izlənməsi** – fakültə və kafedralar üzrə spesifik meyarların tətbiqi, nəticələrin təhlili və inkişaf üzrə tövsiyələr.

## 3. Strategiya və Məqsədlər

| İstiqamət | Fəaliyyətlər |
|---|---|
| **1. Tədris proqramlarının və sillabusların monitorinqi** | - Proqramların məzmun və strukturunun müasir tələblərə uyğun təhlili;<br>- Tələbələr, müəllim heyəti və əmək bazarı nümayəndələrinin prosesə cəlb edilməsi;<br>- Tədris resurslarının (dərslik, dərs vəsaiti, monoqrafiya və s.) toplanması və müqayisəli təhlili;<br>- Tədris proqramlarının tətbiqinə dair tələbə və əmək bazarı rəylərir toplanması və təhlili. |
| **2. Təlim nəticələrinin peşə kompetensiyalarına uyğunluğu** | - Meyarların hazırlanması: konkret, ölçülə bilən və obyektiv göstəricilər;<br>- Əmək bazarı təhlili: müasir tələblərə uyğun kompetensiyaların müəyyənləşdirilməsi;<br>- Davamlı qiymətləndirmə: səriştə əsaslı testlər, layihələr, təcrübələr və rubrikalarla monitorinq;<br>- Kompetensiya xəritəsi: hər proqram üzrə bilik, bacarıq və münasibətlərin təsnifatı. |
| **3. Seçmə fənlərin idarə olunması** | - Müəyyənləşdirmə: mövzuların proqramlarla uyğunluğunun araşdırılması;<br>- Təyin etmə və daxil etmə: seçmə fənlərin tələbə maraqlarına uyğun təqdimatı;<br>- Qiymətləndirmə: effektivliyin yarımillik/illik analizi;<br>- Yenilənmə və təkmilləşdirmə: müasir tələblərə cavab verməyən fənlərin yenilənməsi. |

| | |
|---|---|
| **4. Akademik fəaliyyətlərin qiymətləndirilməsi** | - Fakültə və kafedraların illik hesabatlarının planla müqayisəli təhlili;<br>- Keyfiyyət göstəricilərinə əsaslanan performans izlənməsi. |
| **5. Qiymətləndirmə Sistemləri** | - Müəllim-professor heyəti və tələbələrin fəaliyyətini qiymətləndirmək üçün alətlərin hazırlanması.<br>- Tədris fəaliyyətlərinin və tələbə nailiyyətlərinin obyektiv qiymətləndirilməsi üçün sistemlərin qurulması. |
| **6. Akkreditasiya prosesləri və keyfiyyətin yüksəldilməsi** | - Akkreditasiya sonrası tövsiyələrin sistemli icrası və izlənməsi;<br>- Təkmilləşdirici tədbirlərin hazırlanması və tətbiqi;<br>- Beynəlxalq standartlara uyğunluğun gücləndirilməsi. |

## 4. İcra və Məsuliyyət

- Rəhbərlik tapşırıqlarının vaxtında icrası;
- Qanunvericiliklə müəyyən edilmiş bütün vəzifələrin yerinə yetirilməsi.

## 5. Məlumatların Mühafizəsi və Etik Prinsiplər

**Məxfilik:** Tələbə, müəllim və əməkdaşlardan toplanan şəxsi məlumatlar yalnız müəyyən edilmiş məqsədlər üçün istifadə olunur və üçüncü tərəflərlə paylaşılmır.

**Şəffaflıq:** Məlumatların hansı məqsədlə toplandığı və necə istifadə olunacağı barədə iştirakçılara əvvəlcədən məlumat verilir.

**Məhdud İstifadə:** Yalnız müvafiq tədris, keyfiyyət təminatı və idarəetmə məqsədləri üçün istifadə olunur.

**Məlumat Təhlükəsizliyi:** Elektron və kağız daşıyıcılarında olan məlumatların qorunması üçün texniki və inzibati tədbirlər həyata keçirilir (şifrələmə, parol sistemləri, icazələrin məhdudlaşdırılması).

**Anonimlik və Etik Davranış:** Sorğularda və hesabatlarda tələbələrin şəxsi kimlikləri açıqlanmır, nəticələr anonim formada ümumiləşdirilir.

**Məsuliyyət:** Məlumatların qorunmasına cavabdehlik daşıyan şəxslər və şöbələr aydın şəkildə müəyyən edilir.

## 6. Hüquqi əsaslar və mənbələr

Bu Qaydaların hazırlanmasında aşağıdakı normativ sənədlər və beynəlxalq çərçivələr əsas götürülmüşdür:

- Azərbaycan Respublikasının "Təhsil haqqında" Qanunu
- Ali təhsil müəssisələrinin akkreditasiyası Qaydaları
- Bologna Prosesi prinsipləri
- ESG 2015 (Standards and Guidelines for Quality Assurance in the European Higher Education Area)
- Daxili normativ sənədlər

## Nəticə

AzTU-da akademik performans və keyfiyyətin artırılması məqsədilə müəyyənləşdirilmiş tədbirlər universitetin tədris, tədqiqat və idarəetmə fəaliyyətlərinin keyfiyyətinin yüksəldilməsinə xidmət edir. Qaydaların tətbiqi nəticəsində tədris proqramlarının səmərəliliyi, qiymətləndirmə mexanizmlərinin şəffaflığı, akkreditasiya proseslərinin keyfiyyəti və tələbə-müəllim əməkdaşlığının inkişafı təmin olunacaqdır.

**Hazırlayıb:**

Nərmin Xasayeva,

Akademik keyfiyyətin qiymətləndirilməsi mütəxəssisi

İmza:_________________

**Razılaşdırılıb:**

Pərvanə Mövsümova,

Keyfiyyətin təminatı şöbəsinin müdiri

İmza:_________________